


پنجشنبه 09 اردیبهشت 1395 - 13:18

# Ermni generaldan mktub: Ordumuzda ciddi problemlr mvcuddur

tn gn Ermnistan Prezidenti Serj Srkisyann istefaya gndrdiyi general, Mdafi nazirinin mavini Alik .Mirzbekyann vzifd olarkn Drdgnlk mharib il bal hesabat xarakterli mktubu yaylb

**AranNews- Sosial şəbəkələrdə yayılan məktub Dördgünlük müharibə zamanı ermənilərin verdiyi dəhşətli itkiləri bir daha göz önünə sərir. Alik Mirzəbekyanın Dağlıq Qarabağdakı separat rejimin "müdafiə naziri" Levon Mnatsakyana göndərdiyi məktubda Azərbaycan ordusunun erməni hərbi .birləşmələrini sıradan çıxarması açıq-aşkar ifadələrlə etiraf edilir**

Ermənistan Müdafiə nazirinin müavini Mirzəbekyan məktubu aprelin 11-də Mnatsakyana .göndərib

:Məktubun mətni

Dağlıq Qarabağ Respublikası"nın "müdafiə naziri" general-leytenant L.Mnatsakyana"

Ermənistan Respublikasının Müdafiə naziri general-polkovnik Seyran Ohanyanın əmrinə əsasən "Dağlıq Qarabağ Respublikası ordusu"nun hərbi hissələrində maddi-texniki vəziyyətin .inspeksiyası aparılıb və aşağıdakı çatışmazlıqlar müəyyən edilib

Yoxlama prosesində müəyyən olunub ki, döyüş fəaliyyəti zamanı çoxlu sayda avtomobil texnikası məhv edilib, yerdə qalanların böyük hissəsi istifadəyə yararlı vəziyyətdə deyil. Qeyri-kafi vəziyyətdə olan texnika və köhnə konstruksiyalı zirehli texnikanı bərpa etmək mümkün .deyil. Bu zirehli texnikanın böyük əksəriyyəti isə tırtıllılardır

DQR ordusu"nun təmir-bərpa bazalarında hərbi texnikanın təmir və bərpası üçün gərəkli olan" ehtiyat hissələrinin çatışmazlığı müşahidə edilir. Bunun da nəticəsində texnika istifadəyə yararsız .vəziyyətdə olur. Bu çatışmazlıqlar birbaşa "DQR"in təhlükəsizliyi və müdafiəsinə təsir edir

Həmçinin müəyyən olunub ki, döyüş fəaliyyəti zamanı bölmələrdə sursatların və yanacaq-sürtkü yağları materiallarının çatışmazlığı hiss edilib. Yuxarıda göstərilən problemlərlə yanaşı, avtomobil texnikasının olmaması ucbatından döyüş mövqeyinə hərbi sursatların çatdırılması mütəmadi .həyata keçirilməyib

Yuxarıda göstərilən çatışmazlıqlar aşkar göstərir ki, "Dağlıq Qarabağ ordusu"nun maddi-texniki .sferasında ciddi problemlər mövcuddur

Dağlıq Qarabağ ordusu"nun təhlükəsizliyinin təminatı üçün qısa müddət ərzində texniki baxış" və təmir-bərpa işləri istiqamətində yuxarıdakı çatışmazlıqların aradan qaldırılması üçün kompleks .tədbirlər görülməlidir


قدرت گرفته از پرتال شمس - ITShams.ir